# Rəngarəng proqramlar



**İsmayıllı rayonunda 13 mədəniyyət evi, 24 klub, 60 kitabxana, uşaq incəsənət məktəbi, 2 tarix-diyarşünaslıq muzeyi, Basqal və Lahıc tarix və mədəniyyət qoruğu fəaliyyət göstərir.**

Rayon mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar müəyyən işlər görülmüşdür. Rayon Mədəniyyət evi müasir tələblərə cavab verən istilik sistemi ilə təmin olunmuş, tarix-diyarşünaslıq muzeyində, uşaq kitabxanasında cari təmir işləri aparılmışdır. Rayon mədəniyyət evində bir neçə otaq təmir olunmuş, müasir üslubda qapı və pəncərələr dəyişdirilmişdir.

Mədəni-maarif müəssisələrinin fəaliyyətini canlandırmaq, mədəni-kütləvi tədbirlərin səmərəliliyini yüksəltmək məqsədilə müəyyən işlər görülmüş, bu istiqamətdə mədəniyyət müəssisələri rəhbərlərinin səyləri artırılmışdır. Rayon mədəniyyət evinin qarşısındakı meydanda həftənin I-V günləri musiqi səsləndirilmiş, bazar günləri kənd mədəniyyət evləri və klubların özfəaliyyət dərnəkləri konsert proqramı ilə çıxış etmişlər.

17 avqust 2009-cu il tarixdə rayon ümumtəhsil məktəblərini bitirib, ali məktəblərə qəbul olan gənclərin şərəfinə "Təhsil bayramı" keçirilmişdir.

Şöbədə 11 nəfərdən ibarət üzv seçilərək Şura iclaslarının keçirilməsinə başlanmışdır. Əmək və icra intizamına xüsusi fikir verilir. Bütün müəssisələrdə inventarizasiya aparılıb sona çatdırılmış və hal-hazırda tarixi abidələrin inventarizasiyası aparılır. Rayon ərazisində yaşayan azsaylı xalqların adət-ənənələrini əks etdirən filmlər çəkilir. 45 dəqiqəlik "Lahıc görüntüləri" filmi buna misaldır.

18 sentyabr 2009-cu ildə "Dastan axşamı" keçirilib. Rayon Mədəniyyət evində Heydər Əliyev guşəsi yaradılmış və bütün müəssisələrdə dövlət rəmzləri təşkil olunmuşdur. Əvvəllər rayon tarix-diyarşünaslıq muzeyi darısqal bir otaqda yerləşirdi. Hazırda 3 geniş ekspozisiya zalı və iş otaqlarından ibarət muzey binası tikilib başa çatmışdır. Yaxın günlərdə açılışı olacaqdır. Rayon Mədəniyyət evində tibb, biçmə-tikmə, video və şəkilçəkmə, kompüter dərnəkləri yaradılmış, pullu xidmətlər təşkil olunmuşdur. Görülmüş işlərlə bağlı hər ayın sonunda müəssisələrin hesabatı dinlənilir. İncəsənət məktəbində şöbələr üzrə hər ay hesabat konsertlər keçirilməsi planlaşdırılıb. Kəndlərdə zona müşavirələri keçirilir.

Lahıc, Mollaisaqlı kəndlərində folklor qrupları yaradılmışdır. İvanovka kəndində rayon uşaq incəsənət məktəbinin filialının açılması planlaşdırılır. Uşaq incəsənət məktəbinin istilik sistemi qurulur.

**Bütün bunlar gördüyümüz işlərin bir qismidir. Təbii ki, bununla fəaliyyətimiz yekunlaşmır. Mədəniyyətimizin inkişafı və təbliği istiqamətində həyata keçirəcəyimiz hələ çox layihələrimiz var. Bu mənada, 2010-cu ildə bizi xeyli qayğı gözləyir...**

**● Azər ABBASOV,**
***İsmayıllı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri***